UOT ???

# HÜQUQ DÜŞÜNCƏSİNİN TƏBİƏTİ MƏSƏLƏSİNƏ DAİR

**İ.H.CƏFƏROV**
***Bakı Dövlət Universiteti***
***cafarov-ilyas@mail.ru***

*Məqalədə ən əvvəl qeyd olunur ki, hüquq düşüncəsi hüquqi əhəmiyyət kəsb edən hallarda insanların davranışını tənzimləyən sosial-hüquqi göstərişlər və hamılıqla qəbul olunmuş dəyərlər formasında hüquqi gerçəkliyi əks etdirən şüur sahəsidir. Hüquq düşüncəsi vasitəsilə hüququn özünün və hüquqi nizamlanma üsullarının həqiqiliyi dərk edilir, hüquq haqqında elmi-praktiki biliklər formalaşdırılır. Məqalədə həmçinin qeyd olunur ki, hüquqi təzahürlər aləminin dərk edilməsinin real alətləri qismində hüquqi ideyalar, anlayışlar, fərziyyələr, nəzəriyyələr çıxış edir ki, onların da köməyi ilə hüquqi sferanın analizi həyata keçirilir, hüquqi bilgilər toplanılır və dəqiqləşdirilir.*

**Açar sözlər:** hüquq düşüncəsi, hüquqi təzahürlər, hüquqi sfera

Hüquq düşüncəsinin, eləcə də onun təyinatının və fəaliyyətinin tədqiqi problemi, fikrimizcə, düşüncənin özünün təbiətinin ilkin olaraq nəzərdən keçirilməsi baş vermədən tam və hərtərəfli olmayacaqdır. «Fəlsəfi nöqteyi-nəzərdən düşüncə gerçəkliyin ideal əksinin və mənəvi əxzinin spesifik insani formasıdır. Bu, praktiki fəaliyyəti irəlicədən düşünülən və ona məqsədyönlülük səciyyəsi verən hisslər və təfəkkür tərzləri formasında reallığı əks etdirmə iqtidarında ifadə olunan şəxsiyyətin mənəvi fəallığının ən yüksək halıdır» (1, 78). İnsanın düşüncəsi və fəaliyyəti xaricində ictimai inkişaf təsəvvür edilə bilməz və bu səbəbdən də, düşüncə problemi insanın mahiyyətini yüksək dərəcədə açıb göstərən onun fəaliyyətinin səciyyəsinin və təmayülünün öyrənilməsini ehtiva edir.

İnsan davranışının tənzimində düşüncənin rolunun əhatəli şəkildə dərk edilməsinin vacibliyi qənaətindəyik. Burada söhbət yalnız əlahiddə bir fərdin davranışının tənzimi haqqında deyil, həm də bütün sosial sistemə onun təsirindən gedir. Ona görə də, insanların fəaliyyətinin, münasibətlərinin, davranışlarının öyrənilməsi eyni zamanda düşüncənin vəziyyəti və səviyyəsinin öyrənilməsi deməkdir. Şübhəsiz ki, düşüncənin məzmunu, onun istiqaməti ictimai həyatın sosial-iqtisadi şərtləri ilə əlaqələndirilir. Bu şərtlərin inikası, ictimai inkişafın qanunauyğunluqlarının dərki düşüncənin vacib funksiyasıdır. Bununla belə, düşüncənin yalnız reflektor, idrakı funksiyalarına əsaslanan rolunu

ifadə edən yanaşma da tam şəkildə qəbul edilə bilməz. Düşüncənin yaradıcı, tənzimedici funksiyaları da son dərəcə vacib hesab edilir və bunlarsız cəmiyyətin normal fəaliyyəti ümumiyyətlə, mümkün deyildir. Sabit ictimai sistemin təşkili insan beyninin spesifik fəaliyyəti kimi düşüncənin əməliliyi ilə, fərdi və ictimai düşüncənin təbiəti və funksiyalarının öyrənilməsi ilə qırılmaz surətdə bağlıdır.

A.Q.Spirkin tərəfindən düşüncəyə verilən tərifə nəzər salaq: «Düşüncə yalnız insanlara xas olan və nitqlə bağlı olan, gerçəkliyin ümumiləşdirilmiş və məqsədyönlü inikasında, hərəkətlərin əvvəlcədən fikrən olaraq qurulması və onların nəticələrinin qabaqcadan görülməsində, insanın davranışının məntiqli tənzimlənməsində və özünənəzarətdə ifadə olunan beynin ali funksiyasıdır» (2, 350). Elmi ədəbiyyatda düşüncə həm də «fərdin zahiri aləmin və onun öz həyatının hadisələrinin subyektiv duyulmasında, bu hadisələr barədə fikirlərdə ifadə olunan psixi həyat durumu» (3, 589-590) kimi müəyyən edilir.

A.V.Malko hesab edir ki, «düşüncə süzgəc rolunu oynayır və hüquqi informasiyanı «şifrsizləşdirir». Hüquqi vasitələrin məlumatlarından çıxış edərək və öz maraqlarını nəzərə alaraq, insan müvafiq fəaliyyət proqramını qurur» (4, 634). Başqa sözlə deyilsə, düşüncə emosiyalar formasında idrak, fəaliyyət və ünsiyyət obyektlərinə müəyyən münasibətin ifadəsindən ayrı deyildir. Düşüncənin emosional tərəfini hisslər – fərəh, məmnuniyyət, kədər, həmçinin əhval-ruhiyyə və ehtiraslar – qəzəb, hirs, qorxu, ümidsizlik və s. təşkil edir. Əvvəl söylənilənlərə düşüncənin bir mühüm komponentini – iradəni də əlavə etmək olar ki, bu da insanın müəyyən məqsədə doğru düşünülmüş şəkildə yönəlməsini və onun davranış və ya əməlini özündə əks etdirir.

Düşüncənin funksiyalarına gəldikdə isə qeyd etmək lazımdır ki, düşüncənin vacib funksiyası təbiət, cəmiyyət və insanın özü haqqında bilgilərin əldə edilməsi və toplanmasında reallaşdırılan dərk etmədir. Yaradıcı-konstruktiv adlandırılan, gələcəyin fikrən modelləşdirilməsində, bu əsasda gerçəkliyin məqsədyönlü dəyişdirilməsində ifadə olunan düşüncənin ikinci funksiyası da az əhəmiyyətə malik deyildir.

Düşüncənin digər funksiyası kimi insan fəaliyyətinin və davranışının məntiqi nizamlanmasını, onun ətraf aləmlə qarşılıqlı münasibətlərini təmin edən tənzimləmə funksiyasını qeyd etmək lazımdır.

Nəhayət, düşüncənin müstəqil funksiyası qismində proqnozlaşdırma funksiyası çıxış edir. Müəyyən hüdudlar çərçivəsində insan bir qədər ehtimalla gələcəyi irəlicədən görə, öz hərəkətlərini proqnozlaşdıra, planlarını qura və onları həyata keçirə bilər. Yuxarıda sadalananların nəticəsi kimi sistemləşdirici, qiymətləndirici və təsviri funksiyaları da göstərmək olar. Bütün söylənilənlər düşüncənin aşağıdakı ümumi xarakteristikasını sərgiləməyə imkan verir: düşüncə yalnız insana xas olan və nitqlə bağlı olan, gerçəkliyin ümumiləşdirici və məqsədyönlü inikasından, əməllərin fikrən qabaqcadan qurulmasından və onların nəticələrinin irəlicədən görülməsindən, insan davranışının məntiqi

nizamlanması və özününəzarətindən ibarət olan beynin ali funksiyasıdır.

İctimai münasibətlər həddən ziyadə çoxşaxəlidir. İctimai düşüncənin məzmununu və mahiyyətini müəyyən etməklə, ictimai həyat fəaliyyəti eyni zamanda obyektiv gerçəkliyin müxtəlif tərəflərinin əks etdirilməsinin müxtəlif qaydalarını, həmin tərəflərin dərk edilməsi və qiymətləndirilməsinin müxtəlif aspektlərini irəlicədən müəyyənləşdirir ki, bu da özünün təzahürünü ictimai şüurun (düşüncənin) müxtəlif formalarında tapır.

İctimai şüurun müxtəlif formalarının vahidliyi bir sıra amillərlə müəyyən edilir. Hər şeydən öncə bu, onların yaranmasının vahid əsasıdır, yəni obyektiv olaraq müəyyən tələbatları doğuran cəmiyyətin həyat şəraitidir. Cəmiyyətin maraqları kimi anlanılan bu tələbatlar insan fəaliyyətinin məqsədinə çevrilirlər. Vaxtı çatmış tələbat məqsədəçatma formasını almaq üçün düşüncə vasitəsilə ifadə edilməlidir. Cəmiyyətin ehtiyaclarının və maraqlarının dərk edilməsi sosial mexanizmi hərəkətə gətirir, insanların fəaliyyətini doğurur və bu fəaliyyəti qarşıya qoyulmuş məqsədlərə doğru yönəldir. Bu baxımdan da ictimai şüur bütün labüdlüyü ilə ictimai inkişafın vaxtı çatmış ehtiyaclarının təmini istiqamətində müəyyən sosial sistemin hərəkətinə daxil olur.

İctimai şüurun formalarından hər birinin hüquqla bağlılığının özünəməxsusluğu əsla hüquqla, qanunçuluqla müxtəlif formaların vahidliyində ictimai şüurun nisbəti haqqında danışmağa imkan verən və onlar üçün ümumi olan qarşılıqlı fəaliyyət üsulları və yollarının mövcud olmaması anlamını ehtiva etmir. Bu problem mühüm praktiki əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, adi həyatda ictimai şüurun heç bir forması açıq şəkildə mövcud deyildir. Qısa şəkildə ifadə edilsə, hüquq və qanunçuluq düşüncənin hər hansı bir forması ilə deyil, onun bütün formaları ilə, bu formaların qarşılıqlı çulğalaşmasında və qarşılıqlı şəkildə bir-birinə nüfuz etməsində ifadə olunan qaydada qarşılıqlı olaraq fəaliyyət göstərirlər. Ona görə də, ictimai düşüncənin bütövlükdə təhlili aparılmadan, cəmiyyətin dəyərlər sisteminin təhlilini aparmadan hüququn xüsusiyyətlərini, onun inkişaf istiqamətlərini anlamaq mümkün deyildir.

İctimai şüurun müxtəlif formalarının vahidliyi və qarşılıqlı bağlılığı bu formalardan hər birinin özünəməxsusluğunu inkar etmir. İctimai şüurun formalarından hər biri müəyyən xüsusiyyətlərə malikdir və bu xüsusiyyətlərin üzə çıxarılması hüququn bu və ya digər forma ilə nisbəti mexanizmini müəyyən etmək baxımından olduqca zəruridir.

İctimai şüurun formalarının vahidliyi yalnız əksetmə predmeti ilə deyil, həm də bu formaların cəmiyyətə müvafiq dəyərlərin verməsi ilə müəyyən edilir. Dəyərlər sistemi yaratmaqla, ictimai şüur bir növ insanların davranışlarının nizamlanması zamanı oriyentirlər qismində çıxış edən müəyyən idealları, labüdlük normalarını önə çıxarır.

Fərdlərin, sosial qrupların, bütövlükdə cəmiyyətin davranışının, fəaliyyətinin mahiyyətini nəzərdən keçirərkən hüquq elmi bilavasitə hüquqi gerçəklik sahəsində (bu halda yalnız hüquq və qanunlar deyil, həm də bütün növ hü-

quq pozuntuları, hüquq pozucularının özləri, normativ aktlar və hüquqtətbiqetmə aktları, həmçinin hüquqtətbiqetmə fəaliyyətin özü və s. ehtiva edilir) insanların şüur və davranışının strukturunu öyrənərək, ilk növbədə diqqəti dövləti-hüquqi münasibətlər sahəsinə yönəldir.

Hüquq normalarında öz ifadəsini tapmazdan əvvəl insanların müəyyən maraqları və tələbatları hüquq normalarını yaradan fərdlərin iradəsi və şüurundan süzülüb keçir. Bu baxımdan hüquq normalarının keyfiyyəti, onların ictimai inkişafın tələbatlarına uyğunluğu bilavasitə hüquq normalarını yaradanların hüquqi təsəvvürləri ilə, onların hüquq düşüncəsinin səviyyəsi ilə bağlıdır (5, 205).

Hüquq düşüncəsi vasitəsilə özünün bütün təzahürlərində cəmiyyətin hüquqi həyatının qanunauyğunluqlarının gündəlik təhlili həyata keçirilir, hüququn özünün və hüquqi nizamlanma üsullarının həqiqiliyi dərk edilir, hüquq haqqında elmi-praktiki biliklər formalaşdırılır. Hüquqi təzahürlər aləminin dərk edilməsinin real alətləri qismində isə hüquqi ideyalar, anlayışlar, fərziyyələr, nəzəriyyələr çıxış edir ki, onların da köməyi ilə hüquqi sferanın analizi həyata keçirilir, hüquqi bilgilər toplanılır və dəqiqləşdirilir. Hüquqi dərketmənin əsasında qüvvədə olan qanunvericiliyin təkmilləşdirilməsi, hüquqtətbiqetmə fəaliyyəti çərçivəsində ictimai münasibətlərin ixtiyari tənzimlənməsi, həmçinin vətəndaşlar tərəfindən öz davranışlarının daxilən nizamlanması baş verir. Hüquqi sahədə idrakı fəaliyyət prosesi subyektlərdə eyni zamanda qüvvədə olan qanunvericiliyə və hüquqyaratma təcrübəsinə qiymətləndirici münasibətin formalaşmasına imkan verir.

İctimai proseslərin inkişafına səmərəli şəkildə təsir göstərməkdən ötrü hüququn sistemi elmi baxımdan əsaslandırılmış, daxili vəhdəti ilə seçilən, iqtisadi münasibətlərlə uzlaşan olmalıdır. Səlahiyyətli dövlət orqanlarının hüquqyaratma fəaliyyətinin vəzifəsi ictimai inkişafın obyektiv proseslərini düzgün əks etdirən tam halında olan hüququn sisteminin yaradılmasından və qorunub saxlanılmasından ibarətdir. Hüquq düşüncəsi olmadan isə bu vəzifənin öhdəsindən gəlmək, ümumiyyətlə, mümkün deyil. İctimai inkişafın obyektiv qanunauyğunluqlarının onların hüquqi normalara və göstərişlərə çevrilməsi məqsədilə dərk edilməsi, sosial inkişafın maraqlarının və tələbatlarının üzə çıxarılması, qəbul olunan hüquqi aktların yaxın və uzaq məqsədlərinin qoyuluşu, onların qəbulu və dərkinin motivlərinin müəyyən edilməsi xüsusi peşəkar hazırlığını tələb edən çətin və mürəkkəb bir işdir. Bu baxımdan normativ hüquqi aktları hazırlamaq və qəbul etmək üzrə vəzifələri həyata keçirən səlahiyyətli dövlət orqanlarının işçiləri hüquq düşüncəsinin yüksək səviyyəsinə malik olmalıdırlar. Bununla belə, cəmiyyətdə hüquqyaratma prosesinə geniş əhali kütlələrinin ictimai hüquq düşüncəsi də böyük təsir göstərir. Səlahiyyətli dövlət orqanların ictimai proseslərin inkişafının elmi cəhətdən dərki və qiymətləndirilməsi üzərində qurulmuş fəaliyyəti kütlələrin təcrübəsinə, onların tərəfindən gündəlik fəaliyyət prosesində hüquqi hadisələrin dərkinə, bu hadisələrə münasibətdə kütlələrin verdiyi qiymətə söykənir.

Müasir dövlətlər öz vətəndaşlarının hüquq düşüncəsinin tərbiyəsinə əhəmiyyətli dərəcədə diqqət yetirir. Bu da tamamilə məntiqidir, çünki «hüquqi dövlətin formalaşdırılması hüquqi nihilizmin möhkəm kök salmış stereotiplərinin dəf edilməsi, dövlət idarəetməsinin bütün sahələrində hüquq mədəniyyətinin yüksəldilməsi, məhkəmə sisteminin təkmilləşdirilməsi ilə, habelə siyasi və hüquqi xarakterli digər faktorlarla əlaqəlidir» (6, 215).

İctimai həyatın demokratikləşdirilməsi bütün vətəndaşların qüvvədə olan qanunvericiliklə tanış olması üçün, hüquq normalarının qiymətləndirilməsinin onların məzmununa uyğunluğu, düzgünlüyü baxımından, hüquqi dəyərlərin formalaşdırılması və hüquqauyğun davranışın zəruriliyinə inamın aşılanması üçün əlverişli sosial mühitin yaradılmasını ehtiva edir. Bu baxımdan demokratiyanın gələcəkdə daha da genişləndirilməsi hüquq düşüncəsinin inkişafı üçün bir sıra ümumi və xüsusi hüquqi zəminlər yaradır. Onların sırasında aşağıdakıları qeyd etmək olar:

- qanunvericiliyin sonrakı dövrlərdə də təkmilləşdirilməsi və inkişafı, ictimai həyatın hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət təsisatlarının işində mədəniyyətin yüksəldilməsi, qanunçuluğun möhkəmləndirilməsi;
- dövlət orqanlarının və ictimai təşkilatların fəaliyyətində vətəndaşların iştirakının genişləndirilməsi, əhalinin ictimai-hüquqi fəallığının yüksəldilməsi;
- qanunların hazırlanmasında, müzakirəsində və qəbulunda vətəndaşların iştirakının genişləndirilməsi, hüquqyaratma prosesində ictimai rəyin daim nəzərə alınması, vətəndaşların qanunvericilik təşəbbüsünün artırılması;
- vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsi və ictimai həyat təcrübəsində onların real təminatı.

Səlahiyyətli dövlət orqanları ilə paralel olaraq ictimaiyyət tərəfindən normativ hüquqi aktların geniş müzakirəsi yalnız onların maraqlarının və iradələrinin üzə çıxarılmasının mühüm forması deyil, həm də onların hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafının səmərəli üsuludur. Hüqüqyaratma fəaliyyəti prosesində vətəndaşların təklif və arzularının, onların hüquq düşüncəsinin səviyyəsi və vəziyyətinin nəzərə alınması lazımi istiqamətdə hüquqi ideologiyanın formalaşdırılması üçün konkret tədbirlər görməyə, hüquqi dövlətin qarşısında duran məqsədlərə uyğun olaraq bu ideologiyanı inkişaf etdirməyə imkan verir. Belə ki, Azərbaycan Respublikasının mühüm qanun layihələrinin ümumxalq müzakirəsi, hüquqyaratmada ictimai təşkilatların iştirakı, qanunvericiliyin təkmilləşdirilməsi üzrə vətəndaşların konkret hüquqi təklifləri vətəndaşların hüquq düşüncəsinin durmadan artması barədə, ölkəmizdə hüquqyaratmanın sosial bazasının gələcəkdə də genişləndirilməsi haqqında şəhadət verir.

Hüquqyaratmanın demokratik əsaslarının genişləndirilməsi dövlətin qanunvericilik fəaliyyətində iştirak edən ictimai təşkilatların kütləvi hüquq düşüncəsinin əmələ gəlməsini də şərtləndirir. İctimai təşkilatların üzvlərinin dəstəvi hüquq düşüncəsi əhəmiyyətli dərəcədə həmin təşkilatın fəaliyyətinin xarakteri ilə, onun daxil olduğu hüquq münasibətlərinin dairəsi ilə, onun fəa-

liyyətini nizama salan hüquqi göstərişlər sistemi ilə, onun hüquqi təcrübə sahəsi ilə müəyyənləşdirilir. Dəstəvi hüquq düşüncəsi həmin təşkilatın maraqlarının xüsusiyyətlərini, ümumi maraqların təmin edilməsi üzrə onun məqsədyönlü fəaliyyətini əks etdirir. O, ictimai hüquq düşüncəsindən ayrılmazdır, hüquqda nəinki bütün xalqın ümumi maraqlarının, həm də müvafiq ictimai təşkilatın üzvlərinin hüquqi sahədə spesifik maraqlarının ifadəsini şərtləndirir. Hüquqi dövlətin təşkili şəraitdə ictimai təşkilatların rolunun artması, hüquqi gerçəkliyin dərki üsulu kimi bu təşkilatların üzvlərinin dəstəvi hüquq düşüncəsinin formalaşdırılması və hüquqi gerçəkliyin özünə onun təsiri yüksək nümunəvi hüququn yaradılmasında ictimai təşkilatların iştirakının müxtəlif formalarını ərsəyə gətirmiş olur.

Hüquq düşüncəsinin hüququn realizəsi prosesində də rolu olduqca önəmlidir. Hüquq düşüncəsi «hüququn həyata keçməsinin, onun reallaşdırılmasının məcburi mexanizmlərindən biridir» (7, 42). Vətəndaşların hüquq düşüncəsinin yüksək səviyyəsi hüquq normalarının göstərişlərinin dəqiq yerinə yetirilməsinin rəhnidir. İnkişaf etmiş hüquq düşüncəsi hüquqi tələblərin düşünülmüş şəkildə həyata keçirilməsini təmin edir. Hüququn realizəsində hüquq düşüncəsinin rolu haqqında məsələ mahiyyət etibarilə hüquq norması ilə tənzimlənən sahədə insanın davranışı, fəaliyyəti haqqında məsələdir. Belə davranış hüquqauyğun, yəni hüquq normasının tələbləri ilə uzlaşan, yaxud normadan kənara çıxan, yəni hüquqazidd ola bilər. Davranışın göstərilən hər iki növü şəxsiyyətin düşüncəsinin, xüsusən də hüquq düşüncəsinin müəyyən keyfiyyət vəziyyətindən kənar təzahürünün nəticəsidir. Əsl hüquq qaydasının təmininin zəruri şərti kimi hüquq düşüncəsinin formalaşması yolu cəmiyyət tərəfindən şəxsiyyətə qarşı irəli sürülən zahiri tələblərdən daxili inandırmağa və ondan da əməli fəaliyyətə doğru istiqamətlənmədir. Obyektiv zəruriliyin dərin mənalı dərkinə əsaslanan fərdin hüquqa uyğun davranışı, ona qarşı irəli sürülən hüquqi tələblərin əsl dəyərliliyi hüquqa inam hissi formalaşdırılmadan mümkün deyildir. Hüquq normasının realizəsi prosesi onun tələblərinin fərdiyyətin şüuru ilə qarşılıqlı əlaqəsini ehtiva edir. Həmin prosesdə mürəkkəb sosial-psixoloji və fərdi-psixoloji mexanizmlər hərəkətə gəlir. Lakin hüquq normalarının realizəsini təhlil edərkən yalnız psixoloji mexanizmlərə müncər etmək məsələnin sadələşdirilməsi demək olardı. Burada mürəkkəb sosial faktorlar qarşılıqlı fəaliyyətdədirlər – cəmiyyət sistem kimi; ictimai münasibətlər; fərdin mövcud olduğu mikromühit; böyük və kiçik sosial qruplar; şəxsiyyətin psixofizioloji və ümumi psixoloji keyfiyyətləri. Göstərilən faktorlar insanın, sosial qrupların hüquq düşüncəsində dəyişdirilmiş formada öz ifadəsini tapır, hüquqi təsirə məruz qalan sahədə onların fəaliyyətinin tənzimləyicisi qismində çıxış edirlər.

Hüququn realizəsində vətəndaşların iştirakı – şüurun və fəaliyyətin qırılmaz bağlılığının inandırıcı şəkildə təsdiqidir. Hüquq düşüncəsi insan fəaliyyəti prosesində formalaşır və öz növbəsində, insanların davranışını tənzimləyərək hərəkətlərə və əməllərə təsir göstərir. Şəxsiyyətin hüquq düşüncəsi və fəaliy-

yəti onun hüquqla tənzimlənən ictimai münasibətlər sistemi ilə bağlılığını ifadə edirlər. Fərd bu münasibətləri müəyyən hüquqi anlayış və kateqoriyalarda öz şüur süzgəcindən keçirir, sonra isə özlərinin fəaliyyətlərində formalaşmış anlayışları reallaşdırır, ictimai münasibətləri bütün xalqa lazımi istiqamətdə dəyişdirərək, onlara təsir göstərir.

Hüquq normalarının icrası prosesində hüquq düşüncəsinin rolu onların məqsədyönlü şəkildə tətbiqinin təmin edilməsindən, işin konkret hallarından asılı olaraq hər bir əlahiddə halda şəxsiyyətin hüququnun pozulması və sosial məsuliyyəti haqqında, bu və ya digər şəxsin təhlükəliliyi haqqında məsələni düzgün həll etməyə yardımçı olmasından ibarətdir.

Bütövlükdə hüquqi ədəbiyyatda hüquq düşüncəsinin anlayışı haqqında mövcud yanaşmaların yekunu ortaya belə bir ümumiləşdirilmiş fikri qoyur ki, hüquq düşüncəsi hüquqi biliklər və hüquqa, hüququn realizəsi praktikasına qiymətləndirici münasibətlər, hüquqi əhəmiyyət kəsb edən hallarda insanların davranışını tənzimləyən sosial-hüquqi göstərişlər və hamılıqla qəbul olunmuş dəyərlər formasında hüquqi gerçəkliyi əks etdirən şüur sahəsidir.

Hüquq düşüncəsinin təbiətini müəyyənləşdirmək üçün onun yalnız ictimai şüurun digər formalarından fərqliliyini ortaya çıxarmaq deyil, həm də başlanğıc kateqoriya olan «hüquq»un özündən fərqini göstərmək zəruridir. Hüquq düşüncəsindən fərqli olaraq hüquq yalnız dövlət tərəfindən müəyyən edilən, qanunda öz əksini tapmış və hüququn müxtəlif formalarında təsbitlənən ideyaların məcmusu qismində deyil, həm də hüquq münasibətlərinin müəyyən sistemi kimi də izah olunur. Bu fərqlər çərçivəsində hüquqla hüquq düşüncəsi arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq mövcuddur. Belə ki, hüquq və hüquq münasibətlərinin sistemi hüquq düşüncəsinin əsası qismində çıxış edirlər, çünki məhz qüvvədə olan hüquq sisteminin bazasında başlıca olaraq hüquq və vəzifələr haqqında, qanunçuluq, ədalət və ədalətsizlik barədə, bu və ya digər hüquq normalarının məqsədyönlülüyü olub-olmaması haqqında insanların baxışları formalaşaraq ərsəyə gəlir. Lakin belə qarşılıqlı fəaliyyət hüquq və hüquq düşüncəsi arasında mühüm keyfiyyət dəyişikliklərini aradan qaldırmır.

Həmçinin hüququn və hüquq düşüncəsinin məzmununun uzlaşmamasını qeyd etmək lazımdır. Belə ki, hüquq düşüncəsində, hüquqda, onun normalarında əks etdirilməyən baxışlar ola bilər, ona görə də onlar müvafiq hüquq münasibətlərində və insanların davranışlarında öz realizəsini tapa bilməz.

Hüquq düşüncəsinin digər xüsusiyyəti onun müvafiq hüquq normalarının tətbiqi vasitəsilə realizə edilə bilməsində öz təcəssümünü tapır. Bu isə o deməkdir ki, hüquq düşüncəsi yalnız hüququn vasitəsilə iqtisadi və digər münasibətlərə təsir göstərə bilər, ideoloji təsirə məruz qala və dövlətin məcburetmə qüvvəsinə əsaslana bilər. Məsələn, dövlət incəsənət sahəsinə senzura metodlarını tətbiq etməklə, dini məsələlərə isə dini təşkilatların fəaliyyətini tənzimləməklə böyük təsir göstərmək imkanına malikdir.

## ƏDƏBİYYAT


1. Спиркин А.Г. Сознание и самосознание. М.: Политиздат, 1972, 303 с.
2. Спиркин А.Г. Философия: Учебник. 2-е изд. М.: Гардарики, 2006, 736 с.
3. Новая философская энциклопедия: в 4-х т. Т.III. М.: Мысль, 2010, 696 с.
4. Матузов Н.И., Малько А.В. Теория государства и права. Курс лекций. М: Юристъ, 1997, 672с.
5. Хропанюк В.Н. Теория государства и права: Учеб. пособие. 2-е изд., доп., испр. М.: МП «ДТД», 1995, 384 с.
6. Конституция Российской Федерации. Энциклопедический словарь / В.А.Туманов, В.Е.Чиркин, Ю.А.Юдин и др. 2-е изд., перераб. и доп. М.: Большая Российская энциклопедия, 1997, 320с.
7. Сафронов В.В. Правосознание гражданина: Дис… канд. юрид. наук. Красноярск, 2004, 242 с.


## К ВОПРОСУ ПРИРОДЫ ПРАВОВОГО СОЗНАНИЯ


**И.Х.ДЖАФАРОВ**


### РЕЗЮМЕ


В статье, в первую очередь, отмечается, что правосознание представляет собой сферу сознания, отражающую правовую действительность в форме регулирующих поведение людей в юридически значимых ситуациях социально-правовых предписаний и общепризнанных ценностей. Посредством правосознания познается истинность самого права и способов правового регулирования, формулируются научно-практические знания о праве. В статье также отмечается, что реальными инструментами познания мира правовых явлений выступают правовые идеи, понятия, гипотезы, теории, с помощью которых осуществляется анализ правовой сферы, накапливаются и уточняются правовые знания.



**Ключевые слова:** правосознание, правовое явление, правовая сфера


## ON THE QUESTION OF THE NATURE OF LEGAL CONSCIOUSNESS


**İ.H.JAFAROV**


### SUMMARY


The article notes that legal awareness is the realm of consciousness and legal reality in the form of regulatory behavior in any legal situations of social and legal requirements and generally accepted values. Through legal consciousness we reveal the truth of the law and how the legal regulation formulates scientific and practical knowledge of the law. The article also notes that the real tools of understanding the world of legal phenomena are the legal ideas, concepts, hypotheses, theories, with the aid of which the analysis of the legal sphere collectes and verifies legal knowledge.



**Key words:** legal reality, legal situations, legal sphere